## HÖRMƏTLİ VALİDEYN!

## ERKƏN EVLİLİK UŞAQLARIN:

- Hüquqlarını pozur;
- Həyat və sağlamlığını təhlükəyə atır;
- Təhsildən yayınmasına şərait yaradır;
- Gələcəkdə iş imkanlarından məhrum edir;
- Ailədaxili zorakılığa zəmin yaradır;
- Xoşbəxt həyat və gözəl gələcək vəd etmir.

**UŞAQ "HƏYAT YOLDAŞI" ARZULARI HEÇ BİR ZAMAN REALLAŞMAYACAQ ŞƏXSDİR.**



**HƏLƏ DƏ 18 YAŞINA ÇATMAMIŞ ÖVLADINIZI EVLƏNDİRMƏK İSTƏYİRSİNİZ?**

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİ

### UŞAQ HÜQUQLARI HAQQINDA QANUN

**Maddə 1: Qanunun təsir dairəsi.** Uşaqların bu Qanunda nəzərdə tutulmuş hüquqları və vəzifələri 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən hər bir şəxsə aid edilir.

**Maddə 8: Uşağın yaşamaq və inkişaf etmək hüququ.** Hər bir uşağın yaşamaq, normal şəraitdə fiziki, əqli və mənəvi cəhətdən inkişaf etmək hüququ vardır. Dövlət bu şəraiti təmin edən iqtisadi, sosial-hüquqi və digər tədbirlər görməyi, sağlam və təhlükəsiz mühit yaratmağı öz öhdəsinə götürür.

## CİNAYƏT MƏCƏLLƏSİ

**Maddə 152. On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə.** Yetkinlik yaşına çatmış tərəfindən aşkar surətdə on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli başqa hərəkətlər etmə - üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Maddə 176-1. Qadını nikaha daxil olmağa məcbur etmə.** Qadını nikaha daxil olmağa məcbur etmə - iki min manatdan üç min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə - üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ BELƏ HALLARLA ÜZLƏŞƏN ŞƏXSLƏRƏ DƏRHAL**

**KOMİTƏ YANINDA FƏALİYYƏT GÖSTƏRƏN GENDER - ƏSASLI ZORAKILIQLA BAĞLI**

**(012) 860**
**QAYNAR XƏTTƏ**

**MÜRACİƏT ETMƏYİ TÖVSİYƏ EDİR !!!**

Azərbaycan Respublikasının
Ailə, Qadın və Uşaq Problemləri üzrə
Dövlət Komitəsi



# 18 YAŞADƏK EVLİLİK – UŞAQ EVLİLİYİDİR !